Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Azərbaycanda vətəndaş cəmiyyəti hüquqi dövlət quruculuğunun mühüm tərkib hissəsidir

**Dünya təcrübəsi göstərir ki, hüquqi dövlət quruculuğunda uğuru şərtləndirən əsas məqamlardan biri onun cəmiyyətlə əlaqələrinə əsaslanır. Təbii ki, söhbət burada ilk növbədə vətəndaş cəmiyyətindən gedir. Çünki dövlət hüquqi xarakterə malik olmasa, vətəndaş cəmiyyəti tam miqyasda inkişaf edə bilməz.**

### Dövlətlə vətəndaş cəmiyyəti arasında səmərəli dialoq qurulub

Vətəndaş cəmiyyəti hüquqi dövlətin mühüm tərəfdaşıdır. Əslində, məhz vətəndaş cəmiyyəti hüquqi dövləti tamamlayır, onun daha möhkəm özüllər üzərində dayanmasını təmin edir. Bunun real nümunəsinin Azərbaycanda da mövcud olması ölkəmizdə həm də demokratiyanın təntənəsi hesab olunur.

Bu gün ölkəmizdə demokratik dəyərlərə əsaslanan hüquq sisteminin formalaşdırılması insanların hüquq və azadlıqlarını müdafiə etməyə bütün imkanları verir. Bu fonda vətəndaş cəmiyyətinin inkişafı da ölkəmizdə dinamik xarakterə malikdir. Azərbaycan nəzərə alır ki, hüquqi dövlət bərabərlik əsasında münasibətlərin qurulduğu vətəndaş cəmiyyəti institutlarının inkişafını tələb edir. Məhz bununla bağlı olaraq hüquqi dövlətin prinsipləri ölkəmizdə ilk olaraq müvafiq obyektiv hüquqa uyğun qanunvericilik sisteminin yaradılması, qanunvericilikdə nəzərdə tutulmuş qaydada insanların hüquq və azadlıqlarının təmin olunması ilə özünü göstərir. Özü də bütün bunlar çoxsaylı qanunvericilik aktları, o cümlədən də Konstitusiya ilə tənzimlənir. Məlumdur ki, məhz Konstitusiyanın qəbulundan sonra ölkəmizdə bir çox sahələrdə, xüsusən hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər yaşanıb. Nəticə etibarı ilə vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ölkə daxilində müvafiq mexanizmlər yaradılıb. Məhz Konstitusiyanın qəbulu ilə vətəndaş cəmiyyətinin struktur elementləri sayılan şəxsiyyət, ailə, məktəb, ibadət evləri, sahibkarlıq və təşəbbüskarlıq, sosial qruplar, siniflər, vətəndaşların şəxsi həyatı və onların təminatı, demokratik institutlar, ictimai birliklər, siyasi partiyalar və hərəkatlar, müstəqil məhkəmələr, təhsil sistemi, müstəqil medianın mühüm inkişaf dövrü başlanıb. Ən əsası, vətəndaş cəmiyyəti ilə paralel hüquqi dövlətin formalaşması prosesi də daha dinamik hala gəlib. İndi bunlar bir-birini tamamlayan prosesə çevrilib. Daha bir vacib nüans odur ki, Azərbaycan vətəndaş cəmiyyətinə səmərəli hüquqi dövlət quruculuğunun tərkib hissəsi kimi yanaşır. Dövlət vətəndaş institutlarının müstəqilliyini qəbul edir, onların tənqidinə dözümlü yanaşır. Hətta bu gün dövlətlə vətəndaş cəmiyyəti arasında olduqca səmərəli dialoq qurulub. Bu, cəmiyyətdə müşahidə edilən problemlərin dövlət tərəfindən çevik həllinə imkan verir.

### Üçüncü sektor heç bir problem yaşamadan dövlətin opponenti kimi çıxış edir

Azərbaycanda yaradılan şərait fonunda üçüncü sektor nümayəndələri dövlətin opponenti kimi çıxış edərək, sərbəst şəkildə tənqidçi mövqeyində durur.



Onlar rahatlıqla ortaya alternativ fikir və mövqe qoyaraq, bununla ölkənin inkişafına öz töhfələrini verirlər. Artıq iş ona gətirib çıxarıb ki, vətəndaş cəmiyyəti ölkəmizdə hakimiyyətin ağırlıq çəkisini tarazlayan mexanizm rolunu oynayır.

Belə vəziyyətdə Azərbaycanda vətəndaş cəmiyyətinin, xüsusən də QHT-lərin rolunun daha gücləndirilməsi dövlətin maraq dairəsindədir. Bunun üçün qanunvericilik bazasının daha təkmil hala gəlməsi nəzərdə tutulur. Elə bu günlərdə QHT-lərə Dövlət Dəstəyi Agentliyi QHT-lərin qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə təkliflər paketi hazırlandığı və müvafiq qurumlara göndəriləcəyi barədə məlumat yayıb. Millət vəkili Vüqar Bayramov bu fonda qeyd edir ki, ölkəmizdə QHT-lərin daha sürətli inkişafı çox vacibdir: "Bu gün də Azərbaycanda qeyri-hökümət təşkilatlarının inkişafı, eyni zamanda daxili mənbələr hesabına vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi prosesi prioritet məsələlərdəndir. Elə QHT-lərə Dövlət Dəstəyi Agentliyinin yaradılmasında da məqsəd ondan ibarətdir ki, qeyri-hökümət təşkilatlarına daxili maliyyə mənbələrinin təklif olunması və vəsaitlərin bölüşdürülməsi prosedurları təkmilləşdirilsin. Xüsusən də güclü, Azərbaycanın maraqlarını qoruyan, ölkə həqiqətlərini xaricdə təbliğ edən, ölkə daxilində marifləndirmə prosesinə dəstək verən QHT-lərin daha yaxından dəstəkləməsi həyata keçirilsin. Həm agentliyin yaradılması, həm ondan sonra aparılan müzakirələr, həm də hökümət tərəfindən vətəndaş cəmiyyətinin prosesə intensiv şəkildə cəlb olunması prosesin müsbətə doğru getdiyini göstərir. Eyni zamanda, mütəmadi olaraq vətəndaş cəmiyyəti üzvləri ilə dövlət qurumları rəhbərlərinin, o cümlədən prezidentin köməkçisi Hikmət Hacıyevin vətəndaş cəmiyyəti nümayəndələri ilə görüşməsi, onlayn müzakirələrin aparılması ondan xəbər verir ki, praktik olaraq bu istiqamətdə vətəndaş cəmiyyətinə olan dəstək daha da artacaq. Bununla ilgili olaraq QHT-lərin həm maliyyə resurslarına, həm də digər resurslara çıxış imkanları artırılacaq". Bütün bunlar Azərbaycan vətəndaş cəmiyyətinin qarşıdakı dövr ərzində çevik inkişafına öz vacib töhfələrini verəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**